# 8 MART BAYRAMINIZ MÜBARƏK, ƏZİZ QADINLAR!


# İŞIQ

*İctimai-siyasi qəzet*

| Qəzet 1930-cu ildən çıxır | ŞİRVAN ŞƏHƏRİ | №03 (7492) | 7 mart 2021-ci il | Bazar | Qiyməti 20 qəp. |
|---|---|---|---|---|---|


## Şirvan Şəhər İcra Hakimiyyətinin başçısı İlqar Abbasovun 8 Mart-Beynəlxalq Qadınlar Günü münasibətilə

## TƏBRİKİ

**Hörmətli xanımlar!**
**Əziz analar və bacılar!**

Sizi Beynəlxalq Qadınlar Günü münasibətilə səmimi qəlbdən təbrik edir, hər birinizə möhkəm can sağlığı, firavanlıq və səadət dolu günlər arzulayıram.

Qadınlara nəzakət, sevgi və ehtiramı tərənnüm edən 8 Mart Beynəlxalq Qadınlar Günü dünyanın bir çox yerlərində olduğu kimi, ölkəmizdə də böyük sevinc və fərəh hissi ilə qeyd olunur.

Azərbaycan qadını tarixin bütün dövrlərində ağlı, təmkini, vəfası və yüksək analıq keyfiyyətləri ilə seçilmiş, zərifliyin, nəcibliyin, gözəlliyin rəmzi olan qadın adının ucalığını həmişə qoruyub saxlamışdır. Milli əxlaqi dəyərlərimizi, adət-ənənələrmizi, dilimizin saflığını ən mürəkkəb dövrlərdə yaşadan analarımız bəşəriyyətə görkəmli ədiblər, tarixi şəxsiyyətlər, tanınmış elm və sənət adamları bəxş etmişdir. Müsəlman Şərqində ilk dünyəvi qızlar məktəbinin ölkəmizdə yaranması, dünyanın bir çox ölkələrindən xeyli əvvəl seçib-seçilmək hüququnu əldə etməsi Azərbaycan qadınının mədəni səviyyəsinin və intellektual potensialının təzahürü olmaqla yanaşı, ölkəmizdə qadına verilən dəyərin və ehtiramın başlıca nümunəsidir.

Respublikamız müstəqillik qazandıqdan sonra qadınların cəmiyyətdə rolunun artırılmasına daha çox diqqət göstərilmişdir. Ümummilli lider Heydər Əliyev "Dövlət qadın siyasəti"nin əsasını qoymaqla, ölkə həyatının bütün sahələrində qadınların hərtərəfli fəaliyyətinə geniş imkanlar yaratmışdır. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə qadın hüquqlarının müdafiəsi sahəsində möhkəm qanunvericilik bazası yaradılmış, qadınların qərar qəbuletmə prosesində iştirakı üçün ardıcıl tədbirlər həyata keçirilmişdir. Sevindirici haldır ki, Azərbaycan qadınları mühüm dövlət qurumlarında, parlament və bələdiyyələrdə uğurla təmsil olunur, ictimai-siyasi, sosial-iqtisadi, elmi-mədəni proseslərdə fəal iştirak edir, ölkəmizin inkişafına böyük töhfələr verirlər.

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti çox hörmətli Mehriban xanım Əliyevanın sülhün, tolerantlığın, mədəniyyətlərarası dialoqun formalaşmasında, milli-mənəvi dəyərlərimizin, adət-ənənələrimizin dünya miqyasında tanınmasındakı rolu, xüsusilə xalqın rifahı üçün gördüyü xeyirxah əməllər Azərbaycan xanımları üçün əsl ilham mənbəyidir.

Göründüyü kimi, ölkəmizin qazandığı uğurlarda qadınların misilsiz xidmətləri vardır. Azərbaycan qadını həssas münasibətə və qayğıya layiqdir, çünki hazırkı vəziyyətdə həyatın bütün ağırlıqları onların zərif çiyinləri üzərindədir. Təkcə bir faktı qeyd etmək kifayətdir ki, 32 illik Qarabağ münaqişəsi Azərbaycan qadınının əzmini, iradəsini qıra bilməmişdir. Torpaqlarımızın işğaldan azad olunması və tarixi ədalətin bərpası ilə nəticələnən 44 günlük Vətən müharibəsinin qəhrəmanlarını böyüdən bütün anaların qarşısında baş əyirik. Şəhidlərimizə Allahdan rəhmət, qazilərimizə şəfa diləyirik.

Respublikamızın hər yerində olduğu kimi, Şirvan şəhərində də qadınların ictimai-siyasi, sosial-iqtisadi və mədəni həyatda daha fəal iştirakına diqqət və qayğı göstərilir, lazımi şərait yaradılır. Bu gün şəhərimizdə elə bir sahə yoxdur ki, orada qadınlar çalışmasın. Səhiyyə, təhsl və mədəniyyət müəssisələrində isə çalışanların böyük əksəriyyətini qadınlar təşkil edir. Qadınlar xidmət sahələrində fədakarlıq nümunələri göstərir, şəhərimizdə aparılan abadlıq-quruculuq işlərində fəal iştirak edirlər.

**Əziz qadınlar!**

Əminəm ki, bundan sonra da yüksək insani keyfiyyətlərə malik, sağlam, vətənpərvər nəslin yetişməsinə diqqət göstərəcək, şəhərimizin inkişafında daha da yaxından iştirak edəcək, Vətənimizin xoşbəxt gələcəyi üçün kişilərlə çiyin-çiyinə var qüvvənizlə çalışacaqsınız.

Sizi bayram münasibətilə bir daha təbrik edir, hər birinizə ilk növbədə can sağlığı, ailə xoşbəxtliyi, müvəffəqiyyət və sevinc dolu günlər arzulayıram. Arzu edirəm üzünüzdən təbəssüm əksik olmasın, şərəfli adınız daim ucalsın.

**Bayramınız mübarək olsun!**



## Şirvan şəhərində Xocalı soyqırımının qurbanları yad edilib

**Xocalı soyqırımının 29-cu ildönümü respublikamızın paytaxt və regionlarında olduğu kimi, Şirvan şəhərində də hüzn və ehtiramla qeyd olunub.**

Şəhərin mərkəzi meydanında və küçələrində, dövlət idarələrinin binalarında Azərbaycan Respublikasının dövlət bayraqları endirilib.

Soyqırım qurbanlarının xatirəsini ehtiramla yad etmək üçün Şirvan şəhərinin Bayraq meydanında anım mərasimi keçirilib. Mərasimdə Şəhər İcra Hakimiyyətinin başçısı İlqar Abbasov, şəhər İcra Hakimiyyəti aparatının məsul işçiləri, mərkəzi icra hakimiyyəti orqanlarının regional idarələrinin, hüquq-mühafizə orqanlarının rəhbərləri və şəhər ictimaiyyətinin nümayəndələri iştirak edib. Mərasim iştirakçıları Xocalı soyqırımının ermənilərin təkcə azərbaycanlılara qarşı deyil, bəşəriyyətə qarşı törətdiyi cinayət əməli olduğunu bildiriblər. Bu cinayətlər 44 günlük Vətən müharibəsində də müasir dünyanın gözü qarşısında ən ağır formalarda davam edib. Azərbaycanın mülki vətəndaşları, yaşayış məskənləri və infrastrukturu ağır artilleriya və raket zərbələrinə məruz qalıb. Lakin Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə həm diplomatik görüşlərdə, həm də döyüş meydanında ermənilərə tutarlı cavab verilib. Qeyd olunub ki, Şanlı Qələbədən sonra xalqımız başını dik tutaraq Xocalıya ədalət tələb edir.

Bakı vaxtılə saat 17:00-da Şirvan şəhərinin bütün ərazisində, idarə, müəssisə və təşkilatlarda Xocalı soyqırımı qurbanlarının xatirəsi 1 dəqiqəlik sükutla yad edilib, nəqliyyat vasitələrinin hərəkəti dayandırılıb, səs siqnalları verilib.

Anım mərasimindən sonra mərasim iştirakçıları Şirvan şəhərinin Şəhidlər Xiyabanını ziyarət edib, naməlum əsgər abidəsinin önünə tər gül dəstələri qoyaraq Vətən yolunda canından keçmiş qəhrəmanların xatirəsini böyük ehtiramla yad ediblər.

**Allah bütün şəhidlərimizə rəhmət eləsin!**

## Şəhid leytenant Süleyman Bağırovun yeni dünyaya gəlmiş körpəsi ziyarət edilib

**Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı cənab İlham Əliyevin rəhbərliyi ilə torpaqlarımızın işğaldan azad edilməsi uğrunda sentyabrın 27-sindən başlayan Vətən müharibəsi şanlı Zəfərlə başa çatdı. Azərbaycan Ordusunun əsgər və zabitləri, hərbçiləri döyüş meydanında əsl qəhrəmanlıq göstərərək dövlətimizin və ordumuzun gücünü bütün dünyaya nümayiş etdirdilər. Qələbə sevincini bizə bəxş edən, bu yolda canından, qanından keçən igid Vətən oğullarından biri də şəhid leytenant Bağırov Süleyman Loğman oğludur.**




Bu günlərdə Şirvan Şəhər İcra Hakimiyyətinin nümayəndələri şəhid leytenant Süleyman Bağırovun yenicə dünyaya gəlmiş qızını ziyarət edib. Şəhər İcra Hakimiyyətinin başçısı körpə Nilufərin dünyaya gəlməsi münasibətilə ailə üzvlərini təbrik edib, körpə üçün alınmış hədiyyələri təqdim edib, onun da atası kimi Vətənə layiqli övlad olmasını və sağlam, xoşbəxt böyüməsini arzulayıb. Şəhidin adına yaradılmış xatirə otağında onun şəxsi əşyalarından, şəkillərindən ibarət guşə ilə tanış olub, Vətən uğrunda canından keçən şəhidimizə Allahdan rəhmət diləyib, əziz xatirəsini ehtiramla yad edib.

44 günlük Vətən müharibəsindən söz açan İcra Hakimiyyətinin başçısı Ali Baş Komandanın ətrafında yumruq kimi sıx birləşərək torpaqlarımızın azad olunmasında canından keçən hər bir şəhidimizin daim qəlblərdə yaşayacağını, onların xatirəsinin hər zaman əziz tutulacağını bildirib. Vətənpərvər, cəsur və yüksək keyfiyyətlərə malik övlad böyütdüyü üçün valideynlərinə təşəkkür edən İlqar Abbasov şəhidlik zirvəsinə ucalan Süleyman kimi oğullarla qürur duyduğunu bildirib. Qeyd edib ki, şəhidlik hər kəsin çata bilməyəcəyi ən yüksək məqamdır.

Ölkə Prezidenti tərəfindən şəhid ailələrinə göstərilən diqqət və qayğıdan danışan İcra başçısı şəhidlərimizin, qazilərimizin və onların ailələrinin sosial müdafiəsinin gücləndirilməsi, mənzil-məişət şəraitinin yaxşılaşdırılması, şəhid adlarının əbədiləşdirilməsi istiqamətində dövlət səviyyəsində görülən işlər barədə məlumat verib. Şəhər İcra Hakimiyyəti tərəfindən Şirvan şəhərinin şəhid ailələrinin müntəzəm ziyarət olunduğunu, onların problemlərinə xüsusi həssaslıqla yanaşıldığını vurğulayıb.

Səmimi keçən söhbət zamanı şəhidin atası onları narahat edən məsələlər barədə danışıb. Şəhər İcra Hakimiyyətinin başçısı qeyd olunan problemlərin həlli ilə bağlı müvafiq tədbirlərin görüləcəyini diqqətə çatdırıb.

Şəhid atası Loğman Bağırov şəhid ailələrinə göstərilən diqqət və qayğıya, həssas münasibətə görə ölkə başçısı cənab İlham Əliyevə və çox hörmətli Mehriban xanım Əliyevaya minnətdarlığını ifadə edib. Şəhidin körpəsinin ziyarət olunmasını şəhidimizə olan hörmət və ehtiramın əyani sübutu kimi qiymətləndirib.

Sonda bir daha körpə Bağırova Nilufər Süleyman qızına ən xoş arzularını çatdıran İcra Hakimiyyətinin başçısı İlqar Abbasov şəhidin əmanətinin hər zaman diqqətdə saxlanılacağını vurğulayıb.

## Vətən müharibəsi şəhidi Asif Qəribovun xatirəsi anıldı

**Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyevin uğurlu rəhbərliyi ilə Müzəffər Ordumuzun erməni təxribatlarına və təcavüzünə layiqli cavab verən sürətli Zəfər yürüşündə iştirak edib, tarixi torpaqlarımızı işğaldan azad edənlərdən biri də həmyerlimiz, xüsusi təyinatlı Asif Qəribov olmuşdur.**



Şirvan Şəhər İcra Hakimiyyətinin başçısı İlqar Abbasovun və YAP şəhər təşkilatının təşəbbüsü və təşkilatçılığı ilə bu gün Vətən müharibəsi şəhidi Asif Qəribovun ailəsi ziyarət edildi.

Ziyarət zamanı Vətən müharibəsi şəhidi Asif Qəribovun əziz xatirəsi yad olunmuş, ruhuna dualar edilmişdir.

Qeyd edilmişdir ki, Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyevin və Birinci vitse-prezident, çox hörmətli Mehriban xanım Əliyevanın Vətən müharibəsi şəhidlərinin ailələri və qazilərlə keçirdiyi görüşlər, onlara dövlət səviyyəsində olunan diqqət və qayğı Şirvan şəhərində də davam etdirilir.

Şirvan Şəhər İcra Hakimiyyəti Vətən müharibəsi şəhidlərinin ailələri və qazilərlə görüşlərə xüsusi önəm verir, onların qaldırdıqları məsələlərə, müraciətlərə hassaslıqla yanaşır, maddi və mənəvi dəstək göstərir.

Şəhidin anası Mərmər Qəribova oğlunun keçdiyi hərbi xidmət yolundan danışdı. Onun Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Sərəncamı ilə ölümündən sonra "Vətən uğrunda" və "Füzulinin işğaldan azad edilməsinə görə" medallarına layiq görüldüyünü qeyd etdi. Şirvan Şəhər İcra Hakimiyyəti tərəfindən "Şəhidlər Xiyabanı"nda aparılan abadlıq, yenidənqurma işlərinə, Vətən müharibəsi şəhidlərinin dəfn mərasimlərinin yüksək səviyyədə təşkilinə, qəbrüstü abidələrin ucaldılmasına, "Şəhidlər Xiyabanı"na aparan səkinin salınmasına və şəhərdə aparılan digər abadlıq, quruculuq işlərinə, göstərilən köməkliyə görə Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyevə və Birinci vitse-prezident, çox hörmətli Mehriban xanım Əliyevaya minnətdarlığını və təşəkkürünü bildirdi.

**Allah şəhidlərimizə rəhmət eləsin.**

# Şirvanda yeni STEAM mərkəzi yaradıldı



**Fevralın 9-da Şirvan şəhəri Kimya-Biologiya Təmayüllü Respublika liseyinin nəzdindəki STEAM mərkəzi ilə tanışlıq olub.**

Tədbirdə təhsil naziri Emin Əmrullayev, Şirvan Şəhər İcra Hakimiyyətinin başçısı İlqar Abbasov və tanınmış ictimaiyyət nümayəndələri iştirak edib.

Təhsil naziri Emin Əmrullayev bildirib ki, Birinci vitse-prezident Mehriban Əliyevanın təşəbbüsü və Təhsil Nazirliyinin dəstəyi ilə 2019-2020-ci tədris ilinin əvvəlindən STEAM layihəsinin məktəblərimizdə tətbiqinə başlanılıb. Emin Əmrullayevin sözlərinə görə, STEAM təhsili praktik məşğələlər vasitəsilə elmi, texniki biliklərin gündəlik həyatda tətbiqini şagirdlərə göstərməklə yanaşı, onlara mühəndislik səriştələri öyrədir. Nazir diqqətə çatdırıb ki, mərkəz bütün yaş qruplarının istifadəsi üçün nəzərdə tutulub və STEAM məzmununa uyğun lazımi innovativ texnologiyalarla tam təmin olunub. Mərkəzdə yaradılmış imkanlardan sözügedən liseylə yanaşı, regionun digər məktəblərinin şagird və müəllimləri də istifadə edə bilərlər.

Bildirilib ki, STEAM layihəsinin əsas məqsədi respublikanın ümumtəhsil məktəblərində təhsil alan şagirdlərdə XXI əsr bacarıqlarını – kreativlik, tənqidi düşünmə, əməkdaşlığın inkişaf etdirilməsi, müxtəlif proqramlaşdırma dillərini tətbiq etməklə müasir İKT avadanlıqlarından istifadə edə bilmə qabiliyyətlərini yüksəltməkdir. Layihə hazırda 147 ümumtəhsil məktəbdə tətbiq olunur və 2500-dən çox şagird, 800 müəllimi əhatə edir.

# Şirvan Şəhər İcra Hakimiyyətinin başçısı vaksinasiya prosesi ilə tanış olub



**Azərbaycan Respublikasının Nazirlər Kabinetinin 2021-ci il 16 yanvar tarixli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında COVID-19 xəstəliyi əleyhinə 2021-2022-ci illər üçün Vaksinasiya Strategiyası"na uyğun olaraq, respublikamızın hər yerində olduğu kimi Şirvan şəhərində də koronavirus (COVİD-19) infeksiyasına qarşı mübarizə məqsədilə əhalinin peyvənd olunması kampaniyası uğurla həyata keçirilir.**

Şirvan Şəhər İcra Hakimiyyətinin başçısı İlqar Abbasov Mərkəzi Xəstəxanada vaksinasiya ilə bağlı yaradılmış şəraitlə və vaksinasiya prosesi ilə tanış olub. "Şirvan Şəhər Mərkəzi Xəstəxanası" publik hüquqi şəxsin direktoru İlham Mustafayev əhalinin COVID-19-a qarşı vaksinasiya prosesinin yüksək mütəşəkkilliklə aparılması üçün bütün zəruri tədbirlər görüldüyü barədə İcra Hakimiyyətinin başçısına məlumat verib. Qeyd edib ki, bu məqsədlə Şirvan Şəhər Mərkəzi Xəstəxanasında xüsusi otaqlar ayrılıb və TƏBİBin təlimatlarına uyğun zəruri avadanlıqlarla təchiz edilib. Vaksinasiyadan öncə vətəndaşlarla səmimi söhbət edən İcra Hakimiyyətinin başçısı İlqar Abbasov Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin və Birinci vitse-prezident hörmətli Mehriban xanım Əliyevanın rəhbərliyi altında koronavirus pandemiyası ilə mübarizə tədbirləri çərçivəsində həyata keçirilən vaksinasiya prosesinin vətəndaşların sağlamlığı üçün vacib mərhələ olduğunu qeyd edib və bu sahədə hər bir vətəndaşın üzərinə böyük məsuliyyət düşdüyünü vurğulayıb. Vaksin olunan vətəndaşlar koronavirus əleyhinə vaksinin ölkəyə gətirilməsini və əhalinin müxtəlif qrupları üçün əlçatatanlığını təmin etdiyinə görə ölkə başçısı cənab İlham Əlievə və Birinci vitse-prezident çox hörmətli Mehriban xanım Əliyevaya minnətdarlıqlarını ifadə ediblər.

## VƏTƏN MÜHARİBƏSİ ŞƏHİDLƏRİ



# XÜSUSİ TƏYİNATLININ KƏŞFİYYATÇISI

**Belə bir deyim var: Şəhidə ağlamazlar. Şəhidlik hər kəsə nəsib olmayan bir ucalıqdır. Haqqında yazmaq istədiyim şəhid İslamov Bəxtiyar Saleh oğlu da bu ucalıqdadır. On bir iyun 1997-ci ildə Şirvan şəhər Neftçilər küçəsi döngə 3, 15 nömrəli fərdi evdə dünyaya göz açımşdı. Özü də zəhmətkeş fəhlə ailəsində. Ailədə 3 qardaş iidlər. Əmrah, Bəxtiyar və Məhəmməd. Evin xanımı (anası) isə Gültəkin idi, evdar qadın.**

Bəxtiyar Çılpaqlı qəsəbəsindəki 4 nömrəli məktəbin 9-cu sinfini qurtardıqdan sonra əvvəlcə C.Naxçıvanski adına hərbi liseyi, daha sonra Heydər Əliyev adına Hərbi Akademiyanı bitirir. Uşaqlıqdan arzusu idi hərbiçi olmaq. Hələ ibtidai məktəb illərindən idmanın voleybol, futbol, sambo və başqa növləri ilə məşğul olaraq fəxri fərmanlar, döş nişanları almışdır. Bir vaxtlar həmin məktəbdə bədən tərbiyəsi fənnindən ona dərs demiş, hazırda təqaüddə olan respubilkanın fəxri bədən tərbiyəsi və idman işçisi Əbil Əhmədov onun haqqında belə deyir:

-Ən sevimli şagirdlərimdən biri idi Bəxtiyar. Cəld və çevik hərəkətləri ilə idmanın bütün qayda-qanunlarına düzgün əməl edirdi. Soruşanda ki, böyüyəndə kim olacaqsan, dərhal cavab verirdi:

-Əsgər, sonra zabit.

O, arzusuna çatdı, lakin ömür axıra qədər vəfa qılmadı, müəllim kövrəlir...

2019-cu ildə leytenant kimi xidmətə başlayan gənc zabit B.İslamov 6 ay da əlavə kurs keçərək xüsusi təyinat dəstəsinin kəşfiyyatçısı, az sonra komandirin müavini olur.

2020-ci ilin əvvələrindən başlayaraq erməni quldurlarının «iştəhası» daha da artmışdı. Onlar havadarlarına arxalanaraq yeni-yeni ərazilərimizi də işğal etmək istəyir, tez-tez silahlı münaqişələr törədirdilər. Onların bu hücumlarının qarşısının alınmasında Bəxtiyarın xidmət etdiyi xüsusi təyinatlı dəstənin də çox böyük xidmətləri olmuşdu. Sentyabrın 27-də başlayan Vətən müharibəsinin ilk günlərindən Bəxtiyar və döyüşçü dostları Füzuli, Cəbrayıl, Hadrut rayonlarında ermənilərə sözün həqiqi mənasında divan tutdular. Ağır itki verərək geri çəkilməyə məcbur olan ermənilər hərbi sursat və ağır texnikalarını qoyub qaçırdılar. Şanlı ordumuzun müzəffər əsgərləri onlara öz yerini göstərdilər. Əlbəttə qələbə itkisiz, vətən şəhidsiz olmaz. Bu döyüşlərin birində qrup komandiri yaralanaraq xəstəxanaya göndərilir. Qrup komandirini əvəz edən leytenant B.İslamov düşmənə qarşı daha mərdliklə mübarizə aparmalı olur. Onları geri çəkilməyə məcbur edərkən qəflətən erməni faşistinin gülləsinə tuş gələrək başından ağır yara alır. Həkimlərin ciddi səyinə baxmayaraq oktyabrın 12-də həlak olur...

Məzarı şəhərin Şəhidlər xiyabanındadır. Dəfn mərasimində şəhər icra hakimiyyətinin başçısı, hərbi komissarlıqla yanaşı xidmət etdiyi «N» saylı hərbi hissədən də əsgər və zabitlər iştirak edirdilər.

Subay idi. Ölümündən sonra Ali Baş Komandan İlham Əliyevin sərəncamı ilə «Vətən uğrunda», «Cəsur döyüşçü», «Cəbrayıl uğrunda», medalları ilə təltif olunmuşdur.

**Haşiyə:** İndi şəhidin doğulub boya-başa çatdığı küçənin ərazisində şəhidə (Bəxtiyara) hörmət əlaməti olaraq «Xatirə bulağı» tikilmiş və kiçik bağ salınmışdır. Onu da qeyd etmək lazımdır ki, bu xeyirxah işin təşəbbüsçüsü Elvin Həsənovdur. Bu işlərin təmənnasız görülməsində şəhidin ailəsi, qohumları və qonşuları yaxından iştirak ediblər. Bunlara misal olaraq Elsevər Həsənov, Kamal Səmədov, Rövşən İslamov və başqalarını göstərmək olar.

Yazımın əvvəlində xatırlatdığım kimi sənin yerin həqiqətən ucalıqdadır. Vətən oğlu, şəhid qardaş! Yenilməz el oğlu! Ruhun şad olsun!

**Musaxan HEYDƏRLİ,**
**İctimai müxbir**

# ÖLMƏZLİK ZİRVƏSİNDƏ MƏKANLAŞAN

**Y.Cəfərov 1996-cı ildə oktyabrın 25-də Şirvanın Çılpaqlı yaşayış massivində dünyaya göz açmışdı. Birinci Qarabağ müharibəsində döyüşən atası Mübariz 1992-ci ildə yaralanaraq uzun müddət müalicələr alsa da, 1999-cu ildə xəstəxanada vəfat etmişdi. O zamanlar Yusif azyaşlı idi. Anası Gülbəniz Yusifi iki yaş yarımından tənha böyütmüşdü. Özü müxtəlif yerlərdə xadimə işləyərək 2 yaşından Yusifə tək baxmışdı. Yusifi çətinliklər içərisində, lakin vətənpərvər və xeyirxah bir gənc olaraq tərbiyə etmişdir.**



Yusif 2002-ci ildə Şirvandakı 2 nömrəli məktəbin 1-ci sifinfinə daxil olaraq on bir il sonra həmin məktəbin məzunu olmuşdu. 2013-cü ildə məzun olan Y.Cəfərov həmin il Mingəçevir Dövlət Universitetinin İqtisadiyyat və İdarəetmə fakültəsinə qəbul olmuş, 2017-ci ildə universiteti bitirmişdir.

2017-2018-ci illərdə həqiqi hərbi xidmətdə olmuşdur. Kiçik çavuş Yusif Cəfərov əsgərlikdə kurs bitirərək topçu kimi fəaliyyət göstərmişdir.

Öyrənirik ki, kiçik çavuş Yusif nümunəvi əsgər olub. Bir çox təlimlərdə hərbi biliklərini artırıb. Tapşırıqların öhdəsindən bacarıqla gəlmişdi.

Xidmətdən tərxis edildikdən sonra doğulduğu Çılpaqlıya qayıdan Yusif bir müddət ali məktəbdə aldığı ixisas üzrə işlə təmin oluna bilmədiyi üçün müxtəlif işlərdə çalışıb. Anaya dəstək olmaq Yusifin ən duyğusal arzularından idi. Cəmi bir neçə gün idi ki, o Şirvanadkı «Bolluq» marketlər şəbəkəsində işə düzəlmişdi. ..

Ermənistan silahlı qüvvələrinin 2020-ci ilin sentyabrın 27-dən bir neçə istiqamətdən ərazilərimizə hücum etməsi vətənpərvər gənc kimi Yusifin də arzularını yarmıçıq qoydu. Şirvan şəhər Səfərbərlik Hərbi Xidmətə Çağırış şöbəsindən cəbhəyə yollandı.

Vətənə sədaqət andı içən Yusif bir topçu kimi döyüş yollarını ilk olaraq Füzuli rayonundan başladı. Sonra döyüş yolları Cəbrayıldan, Zəngilandan, Qubadlıdan keçdi. Düşmənin xeyli canlı qüvvəsini və hərbi texnikasıın məhv etdi.

Qüdrətli Azərbaycan ordusunun həyata keçirdiyi əks-hücumlarda Yusif düşmənin neçə-neçə istehkamının dağıdılmasında rəşadətlə döyüşüb. Şücaətlər göstərən Y.Cəfərov igidliyi ilə komandanlığın, döyüşçü yoldaşlarının fəxrinə çevrildi. Doğma diyarın hər kəndinin geri qayıdışı Yusifə yeni döyüş ruhu verib.

Təəssüflə qeyd edək ki, o Xocavənd uğrunda aparılan gərgin döyüşlərdə şəhid olub.

Yaxınlaırının dediklərinə görə Y.Cəfərov 2020-ci ilin 15 oktyabr tarixində Xocavənddə şəhid olub. Bir neçə gün nəşinin döyüş meydanından çıxarılması mümkün olmayıb. 2020-ci ilin 4 noyabr tarixində doğulduğu Şirvan şəhərinin Çılpaqlı qəsəbəsinə gətirilib. M.Mirzəyev küçəsindəki 12 b ünvanında anası Gülbəniz Cəfərova, el-obası, əzizləri ilə vidalaşan el oğlumuz elə həmin gün də Şirvandakı müqəddəs məkan Şəhidlər xiyabanında torpağa tapşırılıb.

Səhhəti ilə bağlı ciddi problem yaşayan ana Gülbəniz xanım ilə görüşə bilməsək də Yusifin dostları ilə apardığımız müsahibələrdə haqqında bəzi məqamları öyrəndik.

Murad Abdullayev (gənc yazar)

-Biz Yusiflə universitetdə eyni qrupda, eyni fakültədə təhsil almışıq. Cəbhəyə yola düşən dəqiqələrə qədər birlikdə olmuşuq. Bir qrup yoldaşı və bir dost kimi deyə bilərəm ki, Yusif hər kəsə hörmətlə yanaşan mərd bir oğul idi. O atasının adıın özünə təxəllüs seçmişdi. -Yusif Mübariz! Yusif Mübariz yaradıcı bir gənc idi. Şeirləri, hekayələri fəlsəfi və düşündürücü idi. Atasının üzünü xatırlamasa da haqqında hörmətlə danırşardı. Söhbətlərində bildirmişdi ki, atası birinci Qarabağ müharibəsində yaralanıb. İllərlə xəstəxanada müalicə alsa da, elə düşmənin vurduğu yaraların fəsadları nəticəsində vəfat edib. Hər ikimiz tək övlad idik. Bəlkə də buna görə Yusif mənə əsl qardaş kimi idi!. Ruhu şad olsun!

Kamran Cabbarov. (asayiş keşikçisi-polis).

-Yusif ilə biz 2 nömrəli məktəbdə birinci sinifdən onbirinci sinfə qədər bir yerdə təhsil almışıq. Olduqca aktiv idi. İstedadlı və ünsiyyətçilliyi, yazı bacarığı ilə fərqlənirdi. İnşa yazılarının əsasını fəlsəfi fikirlər təşkil edirdi. Bir sözlə hamımızdan fərqlənirdi. Vətən müharibəsində də öz qəhrəmanlığı şücaəti, rəşadəti ilə fərqləndi. Yusifi cəbhəyə yola salarkən xatirə şəkli çəkdirməyimizi istədi. «Müharibədən qayıtmasam paylaşarsınız», -dedi. Ərkyana acıqlandım:

-Ölmək nədir?-İnşallah cəbhədən zəfərlə qayıdarsan. Bax o zaman şəkil çəkdirib paylaşarıq. Qələbəni birlikdə qeyd edərik. Sən bizə cəbhə xatirələrindən söhbətlər açarsan. Müharibədən kitab da yazarsan, -dedim.

Dost itkisi ağırdı. Yusifin itkisinə alışa bilmirəm. Yox, Yusif ölməyib. O yaşayır! Vətən uğrunda şəhid olanlar ölmürlər!

Elvin Cəfərov. (Dostu və əmisi oğlu).

-Yusiflə bağlı keçmişdə danışmaq ağırdır. Biz bir həyətdə doğulduq, bir yerdə böyüdük. Uşaqlıq və gəncliyimiz birlikdə keçdi. Yola düşərkən Yusifin dediyi bir neçə ifadə indi də qulaqlarımdan getmir:

-Atamın döyüşdüyü yerləri görəcəm,atamın qan tökdüyü torpaqları azad edəcəm. Atamın qisasını erməni qatillərindən mütləq alacam. İnşallah zəfərlə qayıdaram.

Yusifin insani keyfiyyətləri çox idi. İndi Yusifdən qalan xatirələrdir. Bir də çəkdiyi rəsmlər, portretlər, cizgilər. Yusif həvəskar rəssam idi. Şairliyi də vardı. Mübariz onun təxəllüsü idi. Yusifin yeri cənnətdir!

Topçu Y.Cəfərov öz şücaəti ilə milyonların qəlbində taxt quranlardandır. Bayraqlarımız ardıcıl olaraq Yusiflərin, Mübarizlərin qəhərmanlığı nəticəsində Xocavənd ilə ardıcıl olaraq Azərbaycanın işğaldan azad edilən digər rayonlarında, Kəlbəcərdə,Laçında, Şuşada digər yerlərdə dalğalandırıldı. Qarabağ onların rəşadəti ilə azadlığına qovuşdu.

Vətən üçün doğuldu və şəhid olan Yusif Mübariz oğlu Cəfərov ölümündən sonra «Vətən uğrunda», «Cəbrayıl uğrunda», «Qubadlı uğrunda» üç döyüş medali ilə təltif edildi.

**Həmidə FAZİLQIZI,**
**Azərbaycan Jurnalistlər Birliyinin üzvü**

VƏTƏN MÜHARİBƏSİNİN DÖYÜŞÇÜSÜ

# MÜHARİBƏDƏ ATA YOLUNU DAVAM ETDİRDİ

**44 günlük Vətən müharibəsi ordumuzun, dövlətimizin nəyə qadir olduğunu bir daha sübuta yetirdi. Otuz ilə yaxın erməni işğalı altında inləyən bərəkətli torpaqlarımız azad olundu. Azərbaycan Bayrağı azad olunmuş ərazilərimizdə dalğalandı. Bu müqəddəs, şanlı yolda itkilərimiz olsa da, sonda hamımız qələbə sevinci yaşadıq.**

Emin Şakir oğlu Əliyev müharibənin ağrı-acısını görmüş veteranlarımızdan biridir. Ali Baş Komandan, Prezident İlham Əliyevin müvafiq fərmanı ilə bu yaxınlarda evə buraxılan döyüşçümüz haqqında yazmaq mənim payıma düşdü.

O, 4 dekabr 1988-ci ldə Şirvan şəhərində anadan olmuşdur. Orta məktəb təhsilini şəhər 16 nömrəli tam orta məktəbdə başa vurduqdan onra hərbi xidmətə yollanmış, il yarım Tərtər rayonunda «N» saylı hərbi hissədə quru qoşunların tərkibində snayperçi kimi əsgəri borcunu şərəflə başa vurmuşdur. Qayıtdıqdan sonra bir neçə il fəhlə kimi çalışaraq maddi vəziyyəti aşağı olan ata-anasına kömək etmiş və yenidən müddətli xidmət üçün Bakıda 3 ay hərbi kurs keçdikdən sonra çavuş rütbəsində Beyləqan rayonunda manqa başçısı kimi fəaliyyətə başladı. Hərbi xidmətini başa vurub evə döndü.

2020-ci ilin yay aylarında düşmənin törətdiyi təxribatlar hamı kimi Emini də narahat edirdi. İşlədiyi kiçik ticarət obyektində qərar tuta bilmirdi. Və bir gün Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin şəhər şöbəsinə gəlib 3-cü dəfə cəbhəyə könüllü olaraq getmək üçün ərizə yazdı. Və nəhayət onun ərizəsini nəzərə alıb 21 sentyabr 2020-ci ildə Beyləqan rayonundakı «N» saylı hərbi hissəyə göndərildi. O burada manqa komandiri kimi döyüş mövqeyində xidmətə başladı. Müharibə başlayan gün Goranboy rayonundan hərbi əməliyyata başladılar. Qubadlı, Zəngilan, Cəbrayıl və laçında odun-alovun içində düşmənlə amansız döyüşdə oldular. Qələbə sorağını Zəngilanda eşidən E.Əliyev deyir ki, həmin gün bizim üçün əsl toy-bayrama çevrildi. Şəhidlərimizin qanı yerdə qalmadı, onların qisasını mənfur erməni quldurlarından aldıq..



Emin Əliyevi ata yolunun davamçısı da adlandırmaq olar. Atası Şakir Şirin oğlu 1961-ci ildə Şirvan şəhərində fəhlə ailəsində anadan olub. I Qarabağ müharibəsinin qazisidir. Şəhər 3 nömrəli tam orta məktəbi bitirdikdən sonra keçmiş Sovet ordusu sıralarında Macarıstan Respublikasında hərbi xidmətdə olub. Qayıtdıqdan sonra Sürücülük məktəbində oxuyub. Sonra sürücü kimi fəaliyyət göstərib. Ailə həyatı qurub. Ailənin 3 övladı: Könül, Vüsal və sonbeşik Emin dünyaya gəliblər. Şakir birinci Qarabağ müharibəsinə yola düşəndə evin ağırlığı Gülsura xanımın üzərinə düşür. Şakir Əliyev 1993-cü ildə Ağdam rayonunda müharibədə iştirak edib. Qumbaraatan kimi neçə-neçə düşmənin ateş nöqtələrini susdurmuş, erməni yaraqlılarını məhv etmişdi. Ağdamın Güllücə kəndi uğrundakı qeyri-bərabər döyüşdə ağır qəlpə yarası alır. Əvvəl Kürdəmir, sonra Şirvan şəhər xəstəxanasında 45 gün müalicə alır. Tam sağalmasa da yenidən döyüşçü yoldaşlarının yanına qayıdır. Və nəhayət müharibə qurtardıqdan-ateşkəs elan olunduqdan sonra 1995-ci ildə geri dönür. Hazırda Qarağäd qazisi kimi 2-ci qrup əlilidir. Söhbət zamanı bildirdi ki, bölük komandirimiz kapitan Ağamir Soltanov idi. Bizimlə bərabər döyüşürdü, əsgərləri özündən ayırmırdı. Hamını bir gözlə görürdü... Qarabağı almaq bizə nəsib olmasa da bir neçə ay öncəsi Milli Ordumuza, oğlum Eminə qismət oldu. Ş.Əliyevin böyük oğlu Vüsal 2-ci Qarabağ savaşında iştirak etməsə də, hərbi xidmət illərini cəbhə bölgəsində düşmənlə üz-üzə səngərdə keçirib. Söyləyir ki, mən də manqa komandiri idim. Dəfələrlə düşmənin təxribatının qarşısını alarkən ölümlə üz-üzə qalmışam...

**Haşiyə:** Əliyevlər ailəsini Tofiq İsmayılov küçəsi 17 nömrəli binanın sakini və qonşu kimi çoxdan tanıyıram. Zəhmətkeş və sakit, mehriban qonşudurlar. 9 nəfərdən ibarət üç ailə 2 otaqlı mənzildə yaşayır... Eminin 5 yaşında Səma adlı qızı və 3 yaşında Hüseyn adlı oğlu, qardaşı Vüsalın isə 6 yaşlı Emil adında bir oğlu var. Əliyevlər ailəsinin mənzilə ehtiyacları var. Yəqin ki, şəhər rəhbərliyi digər şəhid ailələri, qaziləri və imkansız ailələrə maddi kömək göstərdikləri kimi, bu ailənin də mənzilə olan tələbatını nəzərə alacaqdır.

**Musaxan HEYDƏRLİ,**
**Azərbaycan Jurnalistlər Birliyinn üzvü**

# "Zəfər ili"nin yekunları

**19 fevral 2021-ci il tarixdə Yeni Azərbaycan Partiyası Şirvan şəhər təşkilatının şura üzvlərinin, ərazi ilk partiya təşkilat sədrlərinin, Gənclər birliyinin və qadınlar şurasının iştirakı ilə 2020-ci ilin yekunları və qarşıda duran vəzifələrə dair videoformatda hesabat yığıncağı keçirilib.**



Yığıncağın işində YAP aparatının məsul əməkdaşı Həsən Daşdəmirov iştirak edirdi.

Yığıncaqda Yeni Azərbaycan Partiyasının yaradıcısı, müstəqil Azərbaycan dövlətinin qurucusu ulu öndər Heydər Əliyevin, II Qarabağ müharibəsində şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad edildi.

Sonra onlayn tədbiri giriş sözü ilə YAP Şirvan şəhər təşkilatının sədr əvəzi Paşa Nəbiyev açaraq qeyd etdi ki, yola saldığımız il Azərbaycan tarixinə zəfər və qalibiyyət ili kimi daxil olmuşdur.

Ermənistanın Azərbaycana qarşı hərbi təxribatı nəticəsində başlayan müharibədə ölkəmizin prezidenti İlham Əliyevin müzəffər Ali Baş Komandan kimi sərkərdəlik keyfiyyətinin, prinsipial və qətiyyətli mövqeyinin, ən ekstremal şəraitdə belə uğurlu diplomatiya yürütdüyünün bir daha şahidi olduq. 44 gün davam edən Vətən müharibəsində Azərbaycanın işğal olunmuş əraziləri Prezident İlham Əliyevin baş komandanlığı ilə erməni qəsbkarlarından azad edildi. Ölkə tarixinin parlaq və unudulmaz səhifələrindən birini təşkil edən bu şanlı qələbənin əsasında həm Prezident İlham Əliyevin liderlik keyfiyyətləri, həm də onun rəhbərliyi altında Azərbaycanın sosial-iqtisadi, siyasi, mədəni, hərbi sahələrdə uğurları, xarici siyasətdə nailiyyətləri dayanır.

Paşa Nəbiyev qeyd etdi ki, hesabat dövründə rayon ərazi ilk partiya təşkilatları əsaslı şəkildə təşkilatlanıb, bütün sahələrdə partiya üzvlərinin fəal iştirakı təmin edilib. Daha sonra qeyd olundu ki, bu gün YAP Şirvan şəhər təşkilatında 5570 nəfər partiya üzvü fəaliyyət göstərir. Onlardan 1994 nəfəri ali, 2431 nəfəri orta-ixtisas, 1145 nəfər isə orta təhsillidir. Partiya üzvlərindən 5551 nəfəri azərbaycanlı, 18 nəfəri rus, 1 nəfər ləzgidir.

Partiya üzvlərinin 2720 nəfəri 18-35 yaşlı, 1917 nəfəri 36-45 yaşlı, 849 nəfəri isə 46-60 yaşlı, 84 nəfər isə 60 yaşdan yuxarıdır.

2020-ci il Şirvan şəhər Gənclər Birliyinin sıralarında 2720 nəfər, Qadınlar Şurasının sıralarında isə 2744 nəfər üzv vardır.

Ötən son bir ildə ölkəmizdə koronavirus pandemiyası ilə mübarizədə, istərsə də Vətən müharibəsində və digər sahələrdə böyük əhəmiyyət kəsb edən uğurlara imza atmışıq.

Gənclər Birliyinin könüllüləri torpaqlarımızın işğaldan azad edilməsi uğrunda Vətən müharibəsində yaralanan qazilərlə görüşərək onlara mənəvi dayaq olmuşlar.

Bundan başqa könüllülərimiz pandemiya şəraitində müxtəlif məzmunlu tədbirlər və aksiyalar keçirmişlər. "Sağlamlığımız milli həmrəyliyimizdir" aksiyası çərçivəsində şəhərdə yaşayan tənha, köməyə ehtiyacı olan, yaşlı, fiziki imkanları məhdud olanlara, xəstələrə müxtəlif təyinatlı yardımlar göstərilmişdir.

Qadınlar şurası mütəmadi olaraq pandemiya ilə mübarizədə həssas ailələrə baş çəkərək onlara maddi və mənəvi dəstək olmuşlar.

Qadınlar şurası tərəfindən bir çox şəhid ailələri ziyarət olunmuş, onların ailələrinə maddi və mənəvi yardım göstərmişdir.

Sonda partiya həyatında fəal iştiraklarına görə bir qrup YAP üzvü Fəxri fərmanla təltif edildilər.

*(Hekayə)*

# HAMLİNİN ACI TALEYİ

## *Dost vəfasızlığının sonu*

**Əlmərdan kişini Çinarlı şəhərində tanımayan tək-tük adam olardı. Köklü-köməcli çinarlılar Əlmərdan kişinin nəslini bu şəhərdə xeyirxah, kasıbkusuba əl tutan, xeyirdə, çətin günlərdə insanların yanında olan bir nəsil kimi tanıyırdılar.**

Əlmərdan kişi Çinarlı şəhərində müxtəlif vəzifələrdə işləmiş, şəhərin abadlığında, yeni-yeni binaların ucaldılmasında, mədəniyyət, səhiyyə, təhsilin inkişafında onun böyük zəhməti olmuşdur. İndiki vəzifəsi isə şəhər maliyyə şöbəsinin müdiri idi...

Əlmərdan kişinin elə gənclik illərindən ovçuluğa böyük həvəsi vardı. Düzdür, əvvəlki məsul vəzifələrində buna o qədər də imkan olmurdu. Səhər tezdən iş başında olan Əlmərdan gecə saat 10-11-ə kimi şəhərin müxtəlif problemləri ilə məşğul olurdu. Yığıncaqlar, iclaslar, Bakıdan işlə əlaqədar müxtəlif nazirliklərdən, şirkətlərdən çağırışlar, tapşırıqlar. Bütün bunlar Əlmərdanın yaxşı işinin bəhrəsi, Çinarlının inkişafı, şəhər sakinlərinin gələcəyi üçün idi.

Hazırki vaxtda isə Əlmərdan kişi ov mövsümü başlayan kimi istirahət günlərində dostlarını başına yığar, səhər tezdən ova tələsərdi...

Əlmərdan kişinin ovçu dostlarından fərqli olaraq ona əziz Hamli adlı ov tulası vardı. Kəklik, turac, göllərdə qaşqaldaq,ördək, digər quşların ovunda ovçulardan fərqli olaraq ov tulasının hamıdan çox zəhməti olurdu. Hamli gölə girərək quşları sahilə çatdırırdı. Onun sayəsində ovçular evlərinə təbiətin ov məhsulları ilə qayıdırdılar.

Əlmərdan kişinin dörd sadiq ovçu dostu vardı. Çinarlı Bələdiyyəsinin sədri Murad Kürdlü, daş karxanasının müdiri Zabit Mirzəli, şəhər idman cəmiyyətinin sədri İlham Salamzadə və Çinarlı seçki dairəsinin sədri Saleh Valehoğlu. Açığın desək, bunlar Əlmərdan kişinin himayəsi sayəsində ad-san qazanmış, vəzifə, mal-mülk sahibi olmuşdular. Ömürləri boyu Əlmərdan kişiyə borclu idilər...

-Sabah ova gedirik,-deyən kimi dostlar hazırlıqlarını görürdülər. İlk növbədə Hamlinin yeməyinə diqqət göstərilirdi. İki «Niva» maşını alaqaranlıqdan Əlmərdan kişinin qapısı ağzında dayanırdı. Kişi yarım saat, bir saata kefi istədiyi vaxt çölə çıxanda əvvəl Hamli «Niva»nın arxa oturacağına sıçrayır, sonra Əlmərdan kişi qabaq oturacaqda əyləşərdi.



**Vaqif ABBASOV,**
***Azərbaycan Jurnalistlər Birliyinin üzvü***

Qışın soyuqlu günlərində maşınlar Sarıqamış gölünə istiqamət alırdı. Ov quşları şaxtalı günlərdə Sarıqamış gölündə bol olurdu. Ovçuların atəşlərindən sonra quşlar ov tulasının «zəhməti» ilə gölün sahilinə çıxarılırdı. Günortaya yaxın tonqal, ocaq qalanır, bazarlıq məsələsinə baxan Murad Kürdlünün rəhbərliyi ilə biş-düş işinə hazırlıq görülürdü. Yemək-içmək işini isə İlham Salamzadə ilə Saleh Valehoğlu görürdü. Süfrə hazır olduqdan sonra heç kim əlini süfrəyə uzatmazdı. Əlmərdan kişi «bismillah» dedikdən sonra məclisə başlayardılar. Spirtli içkidən danışmaq belə olmazdı. Düzdür, içki məclislərində badə qaldıran İlham Salamzadə ilə Saleh Valehoğlu təmiz havada, tonqal başında kababları, ləvəngiyə, toyuq soyutmasına baxa-baxa köks ötürürdülər, bir-birlərinə göz vururdular, yəni «əsil rus arağının yeridir» fikirləşirdilər. Günorta yeməyi başa çatdıqdan sonra axşama doğru yır-yığış edir, Əlmərdan kişinin son sözünü gözləyirdilər.

- Əlmərdan kişi zarafatla onlara sataşardı:

- Hə, Hamliyə təşəkkürünüzü bildirin, evə yola düşək Ən çox ov edən Əlmərdan kişi olardı...

Əslinə qalsa İlham Salamzadədən başqa dostlarının heç birinin ovçuluğa həvəsləri yox idi. Əlmərdan kişinin xatirinə zorən ovçu olmuşdular. Onun yanında olsunlar, deyə...

Çinarlı şəhərində həyat davam edirdi. Dostların hər biri öz işlərində idilər. Bir gün xəbər çıxdı ki, Hamlini maşın vurub.Əhvlat belə olmuşdu. Əlmərdan kişinin həyətində olan tör-töküntünü aparmağa gələn zibil maşını arxaya çıxarkən yolda yatan Hamlini görməmiş, onun ayağını yüngülcə əzmişdi. Maşın getdikdən sonra tula zingildəyə-zingildəyə qalmışdır. Bu xəbər Əlmərdan kişiyə çatdıqdan sonra o əsəbi şəkildə ov tüfəngini götürərək sürücü Şirbalanı axtamağa getmişdir. Şirbalaya xəbər çatdırırlar ki, «Ayə qaç gtzlən, Əlmərdan kişi səni öldürəcək, onun ov tulasının qıçını əzmisən». Yazıq Şirbala maşını yoldaca atıb qaçaraq, qonşu rayonda olan qohumugildə gizlənmişdi.

Anası Gülpəri xala tüfəngi Əlmərdan kişinin əlindən gücle almışdı. Dostlar təcili olaraq Bakıdan Hamlinin müalicəsi üçün bu sahənin təcrubəli həkimini gətirmişdilər. Uzun müddətli müalicədən sonra Hamlinin ayağı bərpa olundu...

Əlmərdan kişi də Şirbalanın xeyli xahiş-minnətindən sonra günahından keçdi.

Dostlar yenidən bir yerə toplaşır, təmiz havada dincəlirdilər...

Amma günlərin birində Əlmərdan kişinin həyatında elə bir dönüş oldu ki, o ovçuluğa son qoydu. Dostlar bunu eşidəndə sanki yasa batdılar.

Gözləmədiyi halda Əlmərdan kişinin qardaşı oğlanları Ramalla Camal Çinarlıya gəlmişdilər. Əlmərdan kişi qardaşı oğlanlarını görəndə təəccübləndi. Qardaşlar əmilərinə yaxınlaşıb əllərindən öpdülər, qucaqlaşıb görüşdülər. Əlmərdan kişi qardaşı uşaqlarına baxıb qürurlandı.

-Ay Moskva uşaqları, sizdən xeyir ola ata-baba yurdunu yada salmısız?

-Əmi, sən bilirsən ki, elimizi də, obamızı da Azərbaycanımızı da çox sevirik. Amma biznes, şirkətlər, iş-güc, xarici ölkələrlə müqavilələr, işgüzar səfərlər, bütün bunlar vaxt aparır. İndi gərək hər an, hər dəqiqə işin üstündə olasan...

-Yaxşı, soyuğun, qarın bu vaxtında bu nə gəlişdir?-deyə Əlmərdan kişi qardaşı uşaqlarına müraciət etdi.

Ramal Camalın üzünə baxdı. Əmi, qoy Camal məsələni açsın.

-Sənin xasiyyətini bilirik, hər şeyi ölçüb biçmişik. Qısası, səni və Nardənə xalanı Moskvaya aparmağa gəlmişik. Əmi, Çinarlıda can qoydun, artıq yaşın 60-ı keçib, təqaüddəsən, şəhəri tikdin, qurdun indi də bizə kömək elə...

-Əlmərdan kişi sanki donub qalmışdı.

-Necə yardım edim sizə?

-Hə gəldik mətləb üstünə,: Camal dedi. - Əmi bizim maliyyə- təsərrüfat işlərinə sən rəhbərlik edəcəksən. Kimə tapşırırıq öhdəsindən gəlmir. Bir də göürük çıxarımız gəlirimizdən çoxdur. Ramalla qərara gəldik ki, bu işlərin öhdəsindən sən gələrsən.

Əlmərdan kişi xeyli fikrə getdi. Ortaya sükut çökdü. Handan-hana dilləndi:

-Mən harda qalacam?

-Əmi Moskvanın mənzərəli yerlərindən birində üç otaqlı mənzil, içərisində hər cür avadanlığı ilə. Xidməti maşın, hansı inamarkadan istəsən. Sürücü azərbaycanlı. İşdə kabinetin, iki otaqlı istirahət otağın və namaz otağın. Xidmətçi və katibən. Evdə və işdə soyuducuda Azərbaycan məhsulları, kürüdən tutmuş, ağartıdan tutmuş quzu ətinə kimi. Kür balığı, dəniz balığı.Nardənə xala yanında bişirib düşürəcək. Azərbaycanlı, hörmətli, adlı-sanlı şəxslərlə də tanış olacaqsan...

Camal əmisinin razılığını almaq üçün dayanmadan danışırdı. Camal danışdıqca Əlmərdan kişi əlini çənəsinə dayayıb ona qulaq asırdı.

«Bu uşaqlar mənim xasiyyətimi bildikləri üçün hər şeyi nəzərə alıblar»-deyə ürəyində götür-qoy edirdi.

-Yaxşı. Bir şey mənə qəribə gəldi. İsti qutablar, Kür balığı. Ona da inanım?

-Əmi, biz sənə yalan deyə bilərik? Balıq məsələsi ilə məşğul olan biznesmenlər var. Onlar 1 tonluq, 2 tonluq xüsusi akvariumlarda Kür suyu ilə xüsusi təyyarələrlə balıq məhsullarını Moskvaya gətirirlər, ordan da bazarlara, başqa akvariumlarda marketlərdə, bazarlarda satışına başlanılır. Qutablar da xüsusi istilik saxlayan termoslarla təyyarələr vasitəsiylə Moskvaya, oradan da isti-isti satış yerlərinə,çatdırılır. Moskvada hamısını görəcəksən.

-Camal elə danışır ki, sanki mən Moskvadayam,-Əlmərdan kişi güldü.

-Əmi, bizim səndən başqa kimimiz var ki, ona etibar edək Camal dilləndi.

Əlmərdan kişi söz tapıb deyə bilmədi.

-Pah atonnan,gör nələr varmış Bakıdan diri balıq, isti qutab. Sizinki gətirdi. Mən razıyam.

-Əmi, Nardənə xalanı da, istərsən, biz razı salarıq.

-Qələt eləməyin, o sizlik deyil. Qaldı Hamli məsələsi.

Qardaşlar bir-birinə baxdılar.O kimdir, əmi?

-O mənim ov tulamdır.

-Əmi, onu bağışla dostlarından birinə. Moskvada ov tulası nəyinə lazımdır?

Əlmərdan kişi Hamlini Zabitə tapşırdı. Zabit bir-iki ay ov tulasına nəzarət etdi. Yeməyinə, gəzintisinə diqqət yetirdi. Sonra bu diqqət unudulmağa başlandı. Əlmərdan kişi getdikdən sonra dostlar ova da, ovçuluğa da son qoydular...

Hamli saatlarla qapı ağzında dayanıb Əlmərdan kişini gözləyirdi. Qara xüsusi maşınlar küçə qapısına yaxın yolda dayanarkən tula başını qaldırır, sahibini görməyəndə başını qıçları arasına salırdı. Gözlərində dərin kədər, məsumlüq vardı...

Hər gün Əlmərdan kişinin yol kənarındakı imarətinin qapısı ağzında yatan Hamli günlərlə, aylarla sahibinin yolunu gözləyirdi. Artıq o arıqlamış, taqətdən düşmüşdü. Bir gün imarətin həyətinə nəzarət edən Səftər əmi tulanın gözə dəyməmədiyini hiss etdi. Çöl qapıya çıxanda Hamlinin yatdığını zənn etdi. İti nə qədər səslədisə heç bir hərirti gəlmədi. Ayağı ilə toxundu. Hamli ölmüşdü. Sahibinin ayrılığına dözə bilməyən ov tulası bu dünyadan əbədi ayrılmışdı.

Bu xəbər Əlmərdan kişiyə çatanda o, ətrafından əl çəkməyən, bu gün onu yada salmayan dostlarını xatırladı və sədaqətli ov tulası Hamli ilə onları müqayisə edib xeyli fikrə getdi...

2021-ci il “Nizami Gəncəvi ili”dir

# Mənəvi gözəllik və xeyirxahlıq mücəssəməsi

**Yüzillikləri arxada qoyub gələn, dövrümüzə yetişən və bəşəriyyət tarixində əbədi mövqe qazanan Nizami sənəti Azərbaycan ictimai-bədii fikrinin inkişafında özünəməxsus orijinal bir mərhələ təşkil edir.- Nizami əsərləri dünya şeir xəzinəsinin nadir inciləridir.**

Nizami Gəncəvi bu gün də bizim mənəvi müasirimiz kimi yaşayır, sevilir. Şairin təlqin etdiyi bəşəri ideyalar, humanist görüşlər, əxlaqi nəticələr xarakterin kamilləşdirilməsinə, bütövləşməsinə kömək edir.

Nizami şeiri nəsilləri yüksək ideallar uğrunda mübarizəyə, gözəllik və ülviyyəti duymağa və qiymətləndirməyə, xeyirxahlıq və qəhrəmanlığa sövq edir, insanı hər cür mənəvi və ictimai eybəcərliklərə qarşı barışmazlıq, dostluq və sədaqət, ədalət və məhəbbət duyğuları aşılayır.

Nizami Gəncəvinin istər lirik irsi, istərsə də vəfatından az sonra “ Xəmsə” (“Beşlik”) adı altında birləşdirilən iri həcmli epik əsərləri – “Sirlər Xəzinəsi”, “Xosrov və Şirin”, “Leyli və Məcnun”, “Yeddi gözəl” və iki kitabdan “Şərəfnamə və “İqbalnamə” dən ibarət “İskəndərnamə”si ictimai və mənəvi işıq, xeyir, gözəllik və ülviyyətdən bəhs edən misilsiz bədii psixoloji və bədii sosioloji nümunələrdir.

Mənəvi gözəllik və xeyirxahlıq - Nizami sənətinin estetik–etik mahiyyətini bu iki anlayışın vəhdətində görmək lazımdır. Müxtəlif mövzuda, müxtəlif biçimdə, müxtəlif bəzəkdə olan Nizami süjetləri bu vahid estetik–etik anlayışda birləşir, ona xidmət edirlər.

Nizami Gəncəvi XII əsr Azərbaycanın yetirməsidir. Mənbə və məxəzlər bu dövrdə Azərbaycanın təzadlı inkişaf tarixi keçirdiyini xəbər verirlər.

Şair şəhərli ailəsində doğulmuşdur. Onun valideynləri zəmanələrinin işıqlı zəka sahibi, elin hörmətli adamlarından idilər. Elmə- savada yüksək qiymət verirdilər. Övladlarının- gələcəyin böyük Nizamisinin bilik dairəsinin əhatəliliyi buna sübutdur.



Nizami mütaliəni çox sevirdi. Doğma şəhəri Gəncənin bütün bilik qapıları Nizaminin üzünə açılmışdır. Məntiq, tibb, hüquq, astronomiya şairin maraqlandığı sahələr idi.

Dühа və zəhmət! Nizaminin təbiətində bütün həyatı boyu bu iki xüsusiyyət vəhdət təşkil etmişdir. Nizami həm də əməksevər idi. Əsərlərində dönə-dönə iş prosesində keçirdiyi həyəcanlardan, yuxusuz gecələrdən, axtarışlardan söhbət açır.

Afaq, həyatının bahar çiçəyi, onun dühası müqabilində hörmət əlaməti olaraq Dərbənd hökmdarı tərəfindən bəxş edilmiş bir töhfə idi. Dərbənddən bu qıpçaq qızını Nizamiyə kəniz göndərmişdilər. Şair ona kəniz kimi baxmırdı. Şair Afaqa qəlbini tapşırdı. Lakin bu ailə səadəti uzun sürmədi. Nizaminin gözəl qadını gənc yaşlarında ikən vəfat etdi. Bu Nizami üçün unudulmaz ağır itki idi və şair Afaqa şeirdən heykəl ucaltdı, onu sənətdə əbədiləşdirdi. “Xosrov və Şirin” əsərində Şirin surəti bu arzu və hisslərlə qələmə alındı.

Dövrünün digər azərbaycanlı şairləri kimi o da özündən asılı olmayan tarixi səbəblər üzündən fars dilində yazıb-yaradırdı. Lakin inkaredilməz bir həqiqət də vardır ki, oda şairin poeziyasındakı Azərbaycan koloritidir. Əsərlərində ana torpağın gözəlliklərini tərənnüm edən şair Makedoniya cəngavəri İskəndəri vətənə çəkib gətirir, el qızı Nüşabə qarşısında baş əydirir.

Şairin yaradıcılığında, xüsusən son möhtəşəm əsəri olan “İskəndərnamə” də - Fales, Hermes, Sokrat, Platon, Aristotel kimi antik yunan mütəfəkkirlərindən bəhs açması da onun renessans dünyagörüşü və həyata baxışı ilə bağlı idi.

Şairin oxucuya təqdim etdiyi həyati nəsihətlər içərisində həddindən artıq özünə güvənməmək, yersiz qürurdan, xudpəsəndlikdən qaçmaq, təvazökarlığa dəvət, gənc nəslin tərbiyəsi, ata-oğul münasibəti, gəncliyin tərbiyəsi, ata qayğısı və s. ilə əlaqədar şairin maraqlı görüşləri diqqəti cəlb edir. Şair ləyaqətli övladı valideyn üçün böyük səadət hesab edir.

**Övladın iqbalı əgər yar olar,**
**Ata sevincindən bəxtiyar olar.**

deyərək gəncliyi cəmiyyətin gələcəyi hesab edir. Nizami gəncliyə nikbin bir ruh aşılayaraq həyatı, gözəllikləri dərindən duymağı, ömrün ən əziz çağını şad keçirməyi, mənalı ömür sürməyi təlqin edir.

**Həyat aləmidir hər şeydən üstün,**
**Cavanlıq günüdür ən qiymətli gün.**
**Elə ki, böyüdün belədir qayda**
**Atanın adından sənə nə fayda?**
**Sən aslanlar kimi keç cəbhələrdən**
**Yalnız hünərinin balası ol sən!**

Çalışdığım 2 nömrəli tam orta məktəbin ana dili və ədəbiyyat müəllimləri Nizami irsinin gənc nəslə öyrədilməsi üçün proqram üzrə verilmiş mövzulardan əlavə Nizami Gəncəvinin əsərlərinə tez- tez müraciət edir, şagirdlərimiz dahi şairin əsərlərindən ibarət illustrasiyalar hazırlayır, səhnəciklər üzərində işləyirlər.

2019-2020-ci dərs ilində şagirdlərimiz “Xosrov və Şirin” əsərinə müraciət edərək əsərdən bir parçanı səhnələşdirərək şəhər ictimaiyyəti qarşısında çıxış etmişlər. Təqdim etdiyimiz şəkil karona-virusa qədər olan vaxtda çəkilmişdir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Azərbaycan Respublikasında 2021-ci ilin “ Nizami Gəncəvi ili” elan edilməsi haqqında 5 yanvar 2021-ci il tarixli sərəncamını əsas tutaraq tədbirlər planı hazırlanmış, məktəbin bütün müəllim və şagirdlərinin il boyu bu mövzuda hazırladıqları tədbirlər şəhər ictimaiyyətinə çatdırılacaqdır.

İnanırıq ki, N.Gəncəvinin 880 illik yubileyi dünya şöhrətli şairimizin bədii irsinin daha dərindən öyrənilməsində böyük rol oynayacaqdır.

**Əminə Əliyeva,**
**Şirvan şəhər 2 nömrəli tam orta məktəbin direktoru.**

# BUNLARI BİLMƏK FAYDALIDIR

İndi qış ayıdır. Biz ən çox qışda xəstələnirik. Xəstəlikdən qorunmaq üçün ən çox nəyə diqqət yetirmək lazımdır? Mütəxəssislərin bu barədə fikirləri daha maraqlıdır.

Düzgün qidalanmaq. Bu ilk növbədə ummunitet sisteminin güclü olması üçün vacibdir.

Mümkün qədər çox protein qəbul etməli. Heyvan mənşəli proteinlərlə bitki mənşəli proteinlərdən «balanslaşdırılmış» şəkildə istifadə etməli.

Çiy meyvə-tərəvəzlərə üstünlük vermək. Çünki, meyvə-tərəvəzlər təbii vitamin və antioksidant mənbəyidir.

Probiotiklərdən istifadə edin (məsələn, süd, qatıq, kefir və s).

Süni içkilər əvəzinə təbii içkilərə üstünlük vermək lazımdır.

Mümkün qədər çox çay içmək lazımdır. Çünki çayın tərkibində (xüsusilə də yaşıl çayın) külli miqdarda antioksidant var.

Yaxşı yatmaq lazımdır. Yuxu həm fiziki, həm də mənəvi sağlamlıq üçün vacibdir Yaxşı yuxu həm də güclü ummunitet sistemi deməkdir.

İdman edin. Ancaq «normadan» kənara çıxmayın.

Unutmayın müntəzəm idman nə qədər xeyirlidirsə, qeyri müntəzəm idman da o qədər zərərlidir.

Təkcə siqaretdən yox, siqaret çəkənlərdən də uzaq olun. Siqaretin təkcə çəkənlərə yox, çəkməyənlərə də zərəri var.

Yağlardan mümkün qədər az istifadə etməli (xüsusilə də transyağlardan).

Çoxlu maye qəbul edin.

Təmizilk maddələrindən çox istifadə etməyin (məsələn, sabun kimi). Çünki təmizlik maddələrindən çox istifadə etmək dərinin sağlamlığını və bakteriya balansını pozur. Bakteriya balansı pozulmuş dəri isə mikroblar üçün «giriş qapısı» deməkdir.

**Topladı**
**Musaxan HEYDƏRLİ**

# DÖVLƏT VERGİ XİDMƏTİ İŞƏ QƏBULLA BAĞLI ƏLAVƏ SƏNƏD QƏBULUNU ELAN EDİR

**İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidməti vergi orqanlarına işə qəbul olunmaq istəyən Azərbaycan Respublikası vətəndaşları üçün işə qəbulla bağlı keçirilməsi təxirə salınmış müsabiqəyə əlavə sənəd qəbulunu elan edir.**

Müsabiqəyə sənəd qəbulu Dövlət Vergi Xidmətinin rəsmi saytında yerləşdirilmiş elektron ərizə vasitəsilə cari ilin yanvar ayının 25-i saat 10.00-dan fevral ayının 8-i saat 24.00-dək aparılacaq. Müsabiqədə iştirak etmək istəyənlər bu müddət ərzində Dövlət Vergi Xidmətinin rəsmi internet saytlarına (www.taxes.gov.az və www e-taxes.gov.az) daxil olaraq elektron ərizə formasını doldurmalıdırlar. Ərizə formasını doldurub sistemə daxil etdikdən sonra namizədə ərizənin sistemə daxil olunduğu barədə elektron poçt ünvanı vasitəsi ilə məlumat verilir. Sənədlər qəbul edildikdən sonrakı beş gün ərzində müvafiq işçi qrup tərəfindən yoxlanılır və ərizənin qəbul edilməsi barədə namizədin elektron poçt ünvanına onun iş nömrəsi göndərilir.

Elektron ərizənin Dövlət Vergi Xidməti tərəfindən təsdiq edildiyi barədə elektron poçt ünvanına bildiriş göndərilmiş namizəd həmin bildirişdə Dövlət İmtahan Mərkəzinin elektron ərizə bazasında ərizənin namizədin özü tərəfindən təsdiq edilməsi üçün qeyd olunmuş müvafiq linkə daxil olmaqla 17 fevral 2021-ci il saat 09.00-dək elektron ərizəsini təsdiq etməlidir. Elektron ərizəsini təsdiq etmiş namizədlər 6 mart 2021-ci il tarixdə saat 10.00-dan 18.00-a qədər imtahana buraxılış vərəqələrini Dövlət Vergi Xidmətinin inzibati binasından (Bakı şəhəri, Yasamal rayonu ak.Landau küçəsi 16) əldə edə bilərlər.

Müsabiqənin test imtahanı mərhələsi 13 mart 2021-ci il tarixdə Dövlət İmtahan Mərkəzinin müəyyən etdiyi yerdə və vaxtda keçiriləcək. İmtahana daxil olmaq üçün namizəd şəxsiyyət vəsiqəsi və imtahana buraxılış vərəqəsini özü ilə gətirməlidir. Test imtahanı mərhələsinin suallarını əhatə (məntiq sahəsi üzrə suallar istisna olunmaqla) edən ədədiyyat siyahısı Dövlət Vergi Xidmətinin rəsmi internet saytının (www.taxes.gov.az.) «İşə qəbul. Müsabiqələr» bölməsində yerləşdirilmişdir.

Mövcud vakant vəzifələrin tələblərinə uyğun olaraq müsabiqədə iqtisadiyyat, hüquq və idarəetmə ixtisas istiqamətləri üzrə ali təhsilə malik şəxslər, yaşı 35-i keçməmiş Azərbaycan Respublikasının vətəndaşları iştirak edə bilərlər. Müvafiq ixtisas üzrə elmi dərəcəsi olan şəxslər, ali təhsili fərqlənmə ilə bitirmiş şəxslər, yüksək peşə hazırlığına və ya iş təcrübəsinə malik şəxlərə müvafiq Komissiya tərəfindən baxılaraq yaş həddi tətbiq edilməyə bilər. MBA proqramı üzrə yuxarıda qeyd olunan ixtisaslardan fərqli ixtisaslar üzrə təhsil almış namizədlərin ixtisaslarının uyğunluğuna müvafiq Komissiya tərəfindən baxılaraq qərar verilir.

Müsabiqədə uğur qazanan şəxslərə vakant vəzifələr üzrə iş təklif ediləcək.

Təklifdən imtina edən şəxslər Dövlət Vergi Xidmətinin kadr ehtiyatından çıxarılacaq.

**5 saylı Ərazi Vergilər İdarəsi**

# Kustar üsulla spirtli içkilərin istehsalı ilə məşğul olan şəxslərin evinə təkrar baxış keçirilib

**Saxta yolla istehsal olunmuş spirtli içkilərin insan sağlamlığına zərər vurması ilə bağlı aparılan maarifləndirmə işlərinə, həmçinin belə hallara qarşı mübarizə tədbirlərinə baxmayaraq, hələ də ölkə ərazisində kustar üsulla spirtli içki istehsalı hallarına rast gəlinir. Bu kimi hallarla bağlı müvafiq tədbirlərin görülməsi və qanunazidd əməllərin qarşısının alınması hüquq-mühafizə orqanları qarşısında duran əsas vəzifələrdir.**

Məlumat üçün bildirilməlidir ki, İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidməti tərəfindən 2020-ci ilin iyun-iyul aylarında Cəfərov Xəlqani Əfqan oğlunun qeydiyyatda olduğu Bərdə şəhəri, Cavanşir küçəsi, ev 60 və Həsənov Tapdıq Qarakişi oğlunun qeydiyyatda olduğu Bərdə şəhəri Cəlil Məmmədquluzadə küçəsi, ev 80 ünvanında yerləşən mənzillərinə məhkəmə qərarları əsasında baxış keçirilib. Həmin nəzarət tədbirlərində X.Cəfərovun kustar üsulla spirtli içkilərin istehsalı ilə məşğul olması faktı öz təsdiqini tapmış, həmçinin aparılan operativ tədbirlər nəticəsində eyni fəaliyyətlə məşğul olan T.Həsənovun da cinayət əməlləri ifşa olunmuşdu.

Qeyd olunan faktlar üzrə Dövlət Vergi Xidmətinin Vergi cinayətlərinin ibtidai araşdırılması Baş idarəsində toplanmış materiallar əsasında istintaq davam etdirilir. Lakin kustar üsulla spirtli içkilərin istehsalı faktları üzrə hər iki şəxs barəsində ilkin istintaqın aparılmasına baxmayaraq, onlar tərəfindən vətəndaşların sağlamlığına zərər vuran qanunsuz fəaliyyətin davam etdirilməsi ilə bağlı istintaqa yeni məlumatlar daxil olub. Bütün bunları nəzərə alaraq 2021-ci ilin yanvar ayının 25-də həmin şəxslərin qeydiyyatda olduqları ünvanlarda nəzarət tədbirləri keçirilib. Tədbir zamanı X.Cəfərovun evində kustar üsulla hazırlanmış 10 ədəd aksiz markası ilə markalanmamış,6 ədəd saxta aksiz markası ilə markalanmış alkoqollu içki, həmçinin 488 ədəd saxta aksiz markası və istifadə olunması nəzərdə tutulan 1685 ədəd butulka aşkar olunub. T.Həsənovun evində keçirilmiş tədbir zamanı isə kustar üsulla hazırlanmış 27 ədəd aksiz markası ilə markalanmamış, 159 ədəd saxta aksiz markası ilə markalanmış, o cümlədən 3 ədəd xarici ölkənin aksiz markası ilə markalanmış alkoqollu içki, həmçinin 8 ədəd saxta aksiz markası istifadə olunması nəzərdə tutulan 907 ədəd butulka aşkar olunub.

Aşkar edilmiş faktlar protokollaşdırılıb. Vergi cinayətlərinin ibtidai araşdırılması Baş idarəsində istintaq materiallarına əlavə edilib.

İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidməti vətəndaşlara bir daha müraciət edərək bldirir ki, saxta məhsulların istifadəsi insan orqanizmi üçün ciddi təhlükə yaradır və belə hallarla rastlaşdıqları, kustar üsulla spirtli içkilər hazırlayıb satan şəxslər barədə hər hansı məlumata malik olduqları təqdirdə, Dövlət Vergi Xidmətinin «195-1» Çağrı Mərkəzinə və yerli vergi orqanlarına məlumat verə bilərlər.

**5 saylı Ərazi Vergilər İdarəsi**

## ETIBARSIZDIR

Pirəliyev Əjdər Atamalı oğluna məxsus 048613 nömrəli «Müharibə veteranı» vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

## «İŞIQ»- 2021 ƏZİZ OXUCULAR!

Şirvan şəhərinin ictimai-siyasi qəzeti “İŞIQ”a 2021-ci ilin 1-ci 6 ayı üçün abunə yazılışı davam edir. 6 aylıq abunə haqqı 14 manatdır. “İşıq”a 6 saylı regional mətbuatı yayımı idarəsində yazılmaq olar. H\ h- AZ39AIIB 33060019444100281141. VÖEN -2100104521. İndeks 66858

“İşıq”a - öz qəzetinizə abunə yazılmağı unutmayın!

Baş redaktor: F.N.RƏHİMOV

Təsisçilər: Şirvan şəhər İcra Hakimiyyəti başçısının aparatı və “İşıq”qəzetinin jurnalist kollektivi

Müəllifin və redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər

Materiallar redaksiyanın kompüter mərkəzində yığılıb səhifələnmişdir

Qəzet BZ mətbəəsində çap olunmuşdur.

Telefonlarımız:
Baş redaktor: 6-35-60
Redaktor müavini: 6-31-35
E-mail: ishiq.qezeti@gmail.com

Ünvanımız:
Şirvan şəhəri,
İ.İ.Qayıbov küçəsi 16,
Şəhadətnamə №161
İndeks: 66858
Tiraj: 650